# XIII-əsrin təsəvvüf şairi Yunus Əmrənin məzarı hardadır?

XIII əsrin görkəmli söz ustası, ümumtürk ədəbiyatının təməl sutunu Yunus Əmrə fenomeni ilə maraqlanan hər bir kəsin ilk sualını bu cür eşidirəm : Yunus Əmrənin məzarı hardadır?

XIII-XV əsr türk ədəbiyyatını araşdıran bir tədqiqatçı olaraq mən isə ilk cavabı belə verirəm O, QƏLBLƏRDƏDİR....

Qeyd edək ki, ümumiyyətlə, klassik sənət inciləri ilə folklor örnəklərinin vəhdətini təcəssüm etdirən, həyatı, mühiti, yaşam tərzi ilə sufi şair olmaqla bərabər həm də xalq müdriki kimi sevilən haqqında yaranan nağıllar, əfsanələr, rəvayətlər arasında görünməz olduğu qədər deyimləri, duyumları, könül nəğmələri ilə unudulmaz olan Yunus Əmrənin məzarının harda yerləşməsi tədqiqatçıları arasında daim mübahisələrə səbəb olmuşdur. Onun yetəri qədər məzarları, əslində isə ziyarətgahları bu gün də yüzlərlə sevgisini qazanmış insanlar tərəfindən yad edilir. Apardığımız tədqiqatlar belə nəticə verdi ki, Yunus Əmrə ilahinin insana vasitəsiz yaxınlığını qəbul edən və ölkələri gəzərək sufi ideyaları təbliğ edən bir dərviş olub. Əslən tükməndi, lakin Türkiyənin Sivrihisarlı şəhərində Sakariya yaxın Sarıköydə 1238-ci ildə anadan olub, 1320-ci ildə 82 yaşında Sarıköydə də dəfn olmuşdur.

Şairin məzarları (ziyarətgahları) haqqında araşdırmalar apararkən sonuncu məlumatlara daha cox güvənərək deyə bilərəmki, Türk ədəbiyyatı tarixinin görkəmli nümayəndəsi Şeyxül Mühərrir, yəni Yazarların Şeyxi Əhməd Kabaklı onun ölüm və olum tarixini belə əsaslandırır: “Adnan Sadik Erzinin Bəyazid Ümumi kitabxanasında bulduğu bir məcmuədə şu qeyd vardır: Vefatı Yunus Emre Sene 720, müddeti ömür 82”. Bu qeyddən (hicri 638-720) bu günki tarixlə 1238-də anadan olub 1320-ci ildə dünyasını dəyişdiyinə ona görə daha cox istinad edilir ki, o sənəd əldə edilən faktlardan ən ilki, qədimi və mötəbəridir. İkinci güvən həmin dəlillərin eyni ilə Hacı Bektaş Vəli “Vilayətnaməsin”də də yer almasıdır. Uzun Firdovsi tərəfindən xalq arasından toplanılıb qələmə alınan bu əsərin bir cox gercəkləri ifadə etməsini Abdülbakı Gölpinarlı da dönə-dönə təkrar edir. Vilayətnamədə deyilir: “Yunus, Tapduk Əmrəyə mənsubdur və Hacı Bektaşla cağdaşdır. Yəni XIII-XIV yüzildə yaşamışlar. Sarıköydə yetişmişdir, şeirləri məşhurdur. Doğulduğu Sariköydə vəfat etmiş və orada yatmaqdadır”.

Şairin ən güvənli tədqiqatcılarından olan Abdülbaki Gölpinarlı məzarları (ziyarətgahları) haqqında isə belə şərh verir: “Yunus Əmrənin də Saltuk kibi bir cox yerlərdə məzarları var”.

1. Bursada - Tədqiqatcı qeyd edir ki, məzar 1105-ci ildə (1694) sufi şair Misri Niyazinin röyası nəticəsində tapılıb və 1143-ildə (1731) Yedəkcizadə Əli tərəfindən qaldırılan bu türbədə üc məzarın olduğu göstərilir.

Məzarlardan birinin Aşıq Yunusa, ikincisinin Yunus Əmrəyə, ücüncüsünün isə Abdurrazaka aid olduğu da qeyd olunur. Bu fikirlərin yanlışlığını faktlarla izah edən Gölpinarlı əlavə edir ki, məzarları icad edən Abdurrazakı da Yunusla çağdaş bir şeyx sanmışdır. Elə bu yanlış fikirlərdən aydın olur ki, bu rəsmi bir məzar yox, ziyarətgah kimi inşa edilib və ya başqa bir Yunusa aid də ola bilir.

2.Əmrəsultanda - salınmış məzardı. Bu kənddəki türbədə isə bir qadın, dördü uşaq olmaqla doqquz məzar vardır. Məzarın varlığı haqqında ilk məlumatı Cağatay Ulucay verib. Üzərində hec bir yazı yox, çöldə qoyulan daş üzərində bir təbər rəsmi var. Bu məzarın da Yunus Əmrəyə aid olduğu hesab edilir. Təbərdə şairin şeyxinə odun doğrayıb gətirdiyinə, yəni xidmətinə işarə verilir. Cağatay Ulucayın bu məlumatında Aşıq Paşazadənin Yunus Əmrə ilə cağdaş olduğu, Qaraca Əhmədin Saruxanoğullular dövründə yaşadığı və burada bu məsələ ilə bağlı bir cox Xorasanlının imzasının və hətta həmin kənddə Emrə Sultan soyundan olduğunu təsdiq edən həmin səcərəyə aid vəsiqələrinin



də olduğu göstərilir. Lakin vəsiqələrdə Yunus Əmrənin adı qeyd olunmur, yalnız Sultan Əmrə kimi gedir. Bu da fikirlərin güvənsiz olduğunu təsdiqləyir. I,II,İst.1940

3.Ərzurumda - Duzcu kəndində salınmış bu məzar isə 1172-ci ildə dünyasını dəyişən “Marifet -Name”nin müəllifi İbrahim Haqqının bir röyasına əsasən salınmışdır. Burada isə Oguz adı göstərilir və kəndin əhalisi Yunusun bir adının da Oğuz olduğu inancına əsaslanaraq məzarın ona aid sanıldığını təsdiqləyirlər. Tapdığa və Yunusa aid iki məzar daşının üzərində 797 tarixi və bir balta rəsmi də vardır.

4.İspartada - Keciborlu qəzası civarında salınmış bu məzardan Bursalı İsmayıl Haqqı bəhs edir. Təbii ki, bu da bir ziyarətgahdir və ya Gölpinarlının qeyd etdiyi kimi ya başqa bir Yunusa aid məzar və yaxud bir məqamdır.

5. Konyada Aksarayda - yerləşən bu məzar bir təpədə salınmışdır. Xalq arasında söylənən rəvayətlərə görə belə bir inanc varmış ki, bu təpədən müxtəlif vaxtlarda bir top səsi gələr və bu səsdən sonra önəmli bir hadisə baş verərmiş. Xalq buna Yunusun batın topu deyərmişlər. Anadoluda belə batın topu atan bir cox təpələr vardır. Bu məzarın da ya şairin müqəddəs ruhuna dair bir ziyarətgah, ya da kiməsə məxsus iqamətgah olduğu güman edilir.

6.Sandıklıda - da bir məzardan bəhs edilir. Bu da eyni ilə Sadeddin Nüshetin ziyarət etdiyi bir iqamətgah olub, burada da Yunus Əmrə yad edilir. Lakin qədim mənbələrdə adı cəkilməyən bir ziyarətgahdı.

7.Ünyedə - yerləşən bu məzar Abdülbakı Gölpinarlının Xalid adlı bir tələbəsinin verdiyi məlumata əsasən araşdırılıb. Bu məzarın da adı həmin vaxta qədər qədər hec bir mənbəədə çəkilməmişdir. Lakin ətraf məzarın Yunus Əmrəyə aid olduğuna çox güvənmişdir.

8.Sivasa gedən yolun üstündə - yerləşən bu məzar haqqında ilk məlumatı Mövlana muzeyinin məmurlarından biri xəbər vermiş və Sadeddin Nushet yalnız bir baş daşı olan bu məzarla maraqlanmış və ətrafda yaşayanların bu məzarı daim ziyarət etmələrini öyrənmişdir.

9.Karamanda - yerləşən bu məzar haqqinda cox mübahisələr olub burada olan bəzi məlumatları Burhan Ümid Yunus Əmrə divanında acıqladı və c.II, İst. Akşam matbaası bunu nəşr etdi. Uzun illər bu məlumat oxundu. Nəhayət Kamil Kebecioğlu Bursada cıxan “Nilüfer” məcmuəsində bir yazı dərc elətdirdi. Bu yazıda da yetəri qədər mübahisəli məqamlar yer alırdı.Karamandakı bu ziyarətgah haqqında cox rəvayətlər söylənirdi. Yunus Əmrənin oğlu İsmayılın buraları İbrahim bəydən alıb yurd salması və s. kimi fikirlər səslənirdi. Lakin tədqiqatçılar uzun axtarışlardan sonra qərara gəldilər ki, bu Yunus Əmrə adı ilə yad edilən bu məzar da ya xatirə ziyarətgahı ya da Yunus Əmrə ilə arasında 198 il fərqi olan Şeyx Yunus Baba al -Maarif adı ilə tanınan Yunus əfəndinin məzarı olub.

10.Qaxda - Azərbaycan rayonlarının biri olan Qaxın Oncalı kəndindəki, Oğuz qəbirisatanlığında yerləşən Şeyx Yunus və Hacı Tapdıq baba məzarları(-ziyarətgahları) bu gün də müqəddəs pir kimi ziyarət olunmaqdadır.Bu məzarlarla bağlı cox mükəmməl araşdırmalar aparan Tarix Elmləri Doktoru Məşədixanım Nemət təsdiqini tapmış dəqiq dəlillərlə hər iki məzarın üzərində ərəbcə yazılmış kitabənin tərcüməsini də qeydə almışdır. Meşənin arasında yerəşən qəbrstanlıq Hacı Tapdıq baba və ondan bir neçə addım yuxarıda Şeyx Yunus qəbrləri ilə başlayır. Şeyx Yunusun qəbri üzərindəki başdaşındakı kitabədə yazılmışdır: ”Biz torpaqdan günahsız yaranmışdıq torpağa isə günahkar qayıdırıq. Bu qəbri mərhum şeyx Yunusun xatirəsini əziz tutmaq üçün Mirzə İbn Cələbi, Soltan İbn Saleh, İbn Məhəmməd Zaman, İbn İmam Əli ...Allah onları bağışlamış, 821 (1418) il tarixdə bina etdi”.

Hacı Tapdıq babanın qəbri üzərindəki başdaşında yazılmış kitabədə isə deyilirdi: “Rəhmli və mərhəmətli Allahın adıyla hər iki dünyanın rəbbinə həmd olsun. Onun yaratdığı Məhəmmədə və onun nəslindən hamısına salam və salavat olsun. Bu evi (qəbir evini) Şeyx Mirzə İbn Cələbi, Şeyx Salman ibn Saleh 1207-ci ildə bina etmişdir.”

Göründüyü kimi, hər iki qəbrin üzərindəki tarixlər nə Yunus Əmrənin, nə də Tapdıq babanın ölüm tarixlərini əks etdirmir. Hörmətli alim Məşədixanım Nemət burda çox maraqlı və narahatcılığa səbəb olan bir məqamı vurğulayır. Tədqiqatcı ikinci dəfə ora gedərkən məzarin üzərindəki həmin yazıları görmür və qəbrlərin bir metr hündürlüyündə caylaq daşları ilə hörülmüş şəkildə yenidən inşa edildiyinin şahidi olur. Lakin xoşbəxtlikdən tədqiqatcı hər iki kitabənin estampını götürübmüş və onları özünün “Şəki - Zakatala zonasındakı turk- ərəb - farsdilli kitabələr” adlı əsərdə dərc etdirib.

Tədqiqatcı Məşədi xanım Nemətin də qeyd etdiyi kimi kitabələrdə adları cəkilən şəxslər cox güman ki, Tapdıq baba və Şeyx Yunusun müridləridir. Belə olduğu halda Şeyx Yunusun Azərbaycandakı məzari (ziyarətgahı) Türkiyə ətrafında və digər ölkələrdəki ziyarətgahlarının coxundan daha qədimdir.

Hər iki məzarın üzərindəki ad və soyadlarda eynilik olsa da, tarixlərdə böyük fərq var bunu da onunla izah etmək olarki, eyni soydan olan bu kimsələr ənənəni davam etdirməyi özlərinə borc biliblər. Onlar bu müqəddəs ziyarətgahları yaratmaqla bir tərəfdən müqəddəs mürşidlərinin xatirəsini yaşatmaq, digər tərəfdən islami dəyərlərlə birgə xalq inanclarınını özündə cəmləşdirən mütəsəvvüflərin müqəddəs ruhlarını yad etməyi özləri üçün savab bilib və onu xeyirxah bir əməl olaraq qəbul ediblər.

11. Eskişeherle bağlı - məzar Sarıköydə yerləşən bu məzar boyük mütəsəvvüf şair Yunus Əmrənin bu gün təsdiqini tapmış və rəsmən qəbul edilmiş məzarıdır.

Yunus Əmrənin məzarının Sarıköydə olmasını təsdiq edən yetəri qədər əsərlər varki, bunlardan H.V.Bektaşı Vilayət-Naməsindən bu yana Şeyx Xali oğlu Sivrihisarlı Baba Yusifin II Bəyazid dövründə yazdığı Fateh, Bursalı Laminin “Nefahat” tərcüməsi, Şakaayık-ı-Numaniyye əsərində, Yunus Əmrənin on beş şeirini sərbəst bir tərcümə ilə fransız dilinə cevirmiş Parisli tədqiqatcı Yves Renierin de əsərlərində və s. bir cox güvənli mənbəələrdə şairin Sarıköydə doğulub orda dəfn olduğundan xəbər verilir.

Yunus Əmrə əfsanələşmiş bir obraz kimi bütün türk dünyasında yad edilən , türkün hafizəsində, qəlbində yaşayan bir şəxsiyyət olub. Onun tədqiqatçılarının fikirləri arasında daim mübahisələr müşahidə olunsa da bütün araşdırmalarda ümumi bir fikir kimi şairin kamil bir insan olmağı, allahını sevib ona sığınmağı, mükəmməl bir şeyx olaraq diqqət çəkən kəramətlərə sahibliyi daim vurgulanır.

Hətta onun tədqiqatcılarından olan Əhməd Kabaklı şairin Tapdıqla bağlı mövqeyini ortaya qoyarkən şairin Tapdıq deyərkən yalnız Tanrını nəzərdə tutduğunu tez-tez vurğulayır. Lakin onun şeirlərinin məzmunundan və Qaxda gözümüz önündəki məzarlıqda Tapdığın ziyarətgahı ilə qoşa salınan Yunus Əmrə ziyarətgahının varlığı Tabdığın şairin mürşüdü olduğunun bir daha təsdiqidir.

Azərbaycanda mütamadi olaraq şairin əziz xatirəsinə həsr olunmuş konfranslar, elmi müzakirələr kecirilir.

**2020**



***Fəridə HİCRAN***